Tariximizin daş yaddaşı

# İçərişəhərin sənət inciləri

**İçərişəhər və onun ərazisindəki Qız qalası, Qala divarları, "Şirvanşahlar Saray Ansamblı", məscidlər, karvansaralar, hamamlar və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur. Bura ruhumuzun şəhəridir, tariximizin daş yaddaşıdır, Bakının qəlbində keçmişi əks etdirən mədəni irsimizin yadigarıdır. Azərbaycan xalqının milli sərvətidir.**

Bu qədim şəhərdə tarix bitmir, əksinə davam edir. Keçmiş, indi və gələcək bu məkanda qovuşur. Əsrlər əvvəl olduğu kimi, yenə də İçərişəhərdə dükan-bazar, Azərbaycan mətbəxinin unudulmaz dadını qoruyan ictimai iaşə yerləri, sənətkarlıq köşkləri, sexlər, kiçik müəssisələr və s. fəaliyyət göstərir. Bura səhər açılıb, axşam bağlanan muzey deyil, canlı bir şəhərdir. Bəzən insanlar unudurlar ki, tarixi məkandadırlar və hər gün XII, XV, XVII əsrlərin abidələri ilə ünsiyyətdə olurlar.

## Keyqubad məscidi

Şirvan hakimlərinin iqamətgahı olan "Şirvanşahlar Saray Ansamblı"nın ən diqqətçəkən tikililərindən biri də Keyqubad məscidi idi. Dərviş türbəsi yanında ona bitişik bir məscid-mədrəsə binası olmuşdur. Türbə məscidin cənub hissəsində yerləşir. O, düzbucaqlı ibadət zalından və onun önündəki kiçik dəhlizdən ibarətdir. Vaxtilə zalın mərkəzində günbəzi saxlayan 4 sütun var imiş. Məsciddə Bakuvinin tədris və ibadət etməsi barədə A.Bakıxanov yazırdı: "Onun ibadət etdiyi hücrə, işlədiyi məktəb və qəbri orada - məsciddədir".

Tədqiqatçı S.Aşurbəylinin yazdığına görə, Keyqubad Şeyx İbrahimin babası idi. Şirvanşah Keyqubad 1317-1343-cü illərdə hakimiyyətdə olmuşdur. Hazırda Şirvanşahlar Sarayının aşağı həyətinin cənub hissəsində Keyqubad məscidindən sadəcə bünövrə qalıqları və bir neçə tağ salamat qalmışdır.



## Saray hamamı

"Şirvanşahlar Saray Ansamblı"nın ən aşağı həyətində saray hamamı yerləşir. İçərişəhərin bütün hamamları kimi bura da temperatur rejimini sabit saxlamaq üçün yerin altında tikilib. Vaxt keçdikcə torpaq qatının qalınlığı artaraq onu tamam örtüb.

Hamam 1939-cu ildə təsadüfən aşkar olunmuş, 1953-cü ildə bir hissəsi təmizlənmiş, 1961-ci ildə konservasiya edilmişdir. Hamamın indiyə qədər qalmış divarlarına görə demək olar ki, onun otaqlarının üstü günbəzlə örtülmüşdür. Günbəzdə olan dəliklərdən hamamın içərisinə işıq düşürmüş. Bu növ hamam sistemi Bakı və Abşeron üçün tipikdir. Hamamın sol hissəsi bərpa olunmuş, sağ hissə isə öz əvvəlki formasını daha çox saxlamışdır.

Hamama daxil olan su divar yaxınlığında olan ovdandan (su anbarından) qazanxanaya axır, oradan isə tikilmiş xüsusi yollar vasitəsi ilə otaqlara paylanırdı. Burada tək adamın çimməsi üçün "xəlvəti" otaqlar da vardır.

Hamamın sağ küncündə üstü günbəzli bir böyük və iki kiçik otaq vardır. Kaşı üzlüyə malik bu otaqların şəxsən şaha məxsus olduğu ehtimal edilir.

***Hazırladı: İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 29 avqust.- S.6.